**Azərbaycan Respublikasının AUDİTORLAR PALATASI**

**CHAMBER OF AUDITORS of the Republic of Azerbaijan**

AZ1072, Bakı, S.Y.Bakuvi küç. 35, Tel./Faks: 498-28-55, E-mail: audit-azerbaijan@audit.gov.az AZ1072, 35, S.Y.Bakuvi Str., Ph./Fax: 498-28-55

№ 10-1/2-134/2025 «17» mart 2025 il/year

**Azərbaycan Respublikası Auditorlar Palatasının əməkdaşlarına və üzvlərinə Novruz Bayramı münasibətilə**
**TƏBRİK**

***Hörmətli dostlar!***

*Azərbaycan Respublikası Auditorlar Palatasının rəhbərliyi və şəxsən öz adımdan Sizi- Azərbaycan xalqının zəngin mənəvi irsini və qədim ənənələrini özündə ehtiva edən, milli varlığımızın rəmzinə çevrilmiş Novruz bayramı münasibətilə səmimi qəlbdən təbrik edir və ən xoş arzularımı bildirirəm*

*Azərbaycan auditorları ölkənin iqisadi, ictimai-siyasi, mədəni həyatında fəal iştirak edir və dövlətin idarə olunmasında fədakar xidmətlər göstərirlər.*

*Ulu Öndərimizi Heydər Əliyevin azərbaycançılıq məfkurəsinə, milli mənəvi dəyərlərimizə verdiyi böyük qiymətin nəticəsidir ki, Novruz bayramı bu gün ölkəmizdə geniş qeyd olunur.*

*Müstəqil Azərbaycanımızın davamlı inkişaf strategiyasının reallaşdırılması istiqamətində görülən işlər, həyata keçirilən böyük layihələr, bunların nəticəsi olaraq ölkəmizin dünyanın ən stabil ölkələri sırasında yer tutması, regionda lider dövlətə çevrilməsi xalqımızda qanuni iftixar hissi doğurur. Bütün bunlar, habelə müstəqil dövlətimizin xalqın rifah halının durmadan yüksəltməyə yönəlmiş sosialyönümlü siyasəti Azərbaycan vətəndaşlarında sabaha böyük inam və ümidlər yaradır.*

***Əziz dostlar!***

*Çox xoşdur ki, Sizlər ölkəmizdə hesabatlılığın və şəffaflığın artırılması istiqamətində iqtisadiyyatın möhkəmləndirilməsi naminə vəzifə borclarınızı şərəf və ləyaqətlə yerinə yetirirsiniz.*

*Ümidvaram ki, möhtərəm Prezidentimizin Azərbaycan auditorlarının qarşısına qoyduğu ölkə iqtisadiyyatının daha da şəffaflaşması, maliyyə vəsaitindən effektiv və təyinatına uyğun istifadə üzərində nəzarətin hərtərəfli gücləndirilməsi, dövlət və audit təsisatları arasında əməkdaşlığın dərinləşdirilməsi, auditin müstəqil nəzarət institutu kimi inkişaf etməsi və audit xidmətlərində rəqəmsallaşma işinə öz töhfənizi verəcəksiniz.*

*İnanıram ki, Auditorlar Palatasının üzvləri bundan sonra da Azərbaycan auditinə göstərilən diqqət və qayğıya cavab olaraq ölkə rəhbərliyinin etimadını doğruldacaq, dövlətimizə, iqtisadiyyatımızın tərəqqisinə və mənsub olduqları şərəfli və məsul auditor peşəsinə sədaqətlə xidmət edəcəklər.*

*Əziz dostlar! Sizə uzun ömür, cansağlığı, fəaliyyətinizdə yeni-yeni uğurlar arzulayıram.*

*Novruz bayramınız mübarək!*

***Dərin hörmətlə,***

***Vahid Novruzov***
***Azərbaycan Respublikası***
***Auditorlar Palatasının sədri***